**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Гудси Фаранак Бахаддин**

# СРАВНИТЕЛЬНЫЙ СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ ПОВЕДЕНИЯ ШКОЛЬНИКОВ, ИСПОЛЬЗУЮЩИХ ИНТЕРНЕТ (Тегеран-Баку)

6114.01 – Социальная психология

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по психологии**

**Баку – 2016**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**QUDSI FARANAK BAHADDIN**

# İNTERNETDƏN İSTİFADƏ EDƏN MƏKTƏBLİLƏRİN DAVRANIŞININ MÜQAYİSƏLİ SOSİAL–PSİXOLOJİ TƏHLİLİ (TEHRAN – BAKI)

6114.01 – Sosial psixologiya

**Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2016**

İş Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: psixologiya üzrə fəlsəfə doktoru, dosent **Rəna Fuad qızı İbrahimbəyova**

Rəsmi opponentlər**:** psixologiya üzrə elmlər doktoru, professor **Gülnarə Kazım qızı Qurbanova**

psixologiya üzrə fəlsəfə doktoru **Əzim Əli oğlu Əliyev**

Aparıcı təşkilat: Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi psixologiya kafedrası

Müdafiə "_16___" "__03___" 2016-cı il saat___ da Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan**:** AZ 1148, Bakı şəhəri, Zahid Xəlilov küçəsi 23, II korpus, aidutoriya 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "____" "______________" 2016-cı ildə göndərilib.

FD.02.014 Dissertasiya şurasının elmi katibi — psixologiya üzrə fəlsəfə doktoru, dosent **Rəşid Vəkil oğlu Cabbarov**

Sifariş N 22; tiraj 100
“Ecoprint” nəşriyyatının mətbəəsində
çap olunmuşdur

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. İnformasiyanın ən çevik və optimal mübadilə vasitəsi olan internet XX əsrin ortalarında meydana gəlmiş və bütün dünyada ağlasığmaz dərəcədə sürətlə inkişaf etməyə başlamışdır. Faktiki olaraq internetdən istifadə, cəmiyyətin bir çox sahələrində olduğu kimi təhsildə də təlimin kompüterləşdirilməsi və bu zəmində yeni təlim metodlarının tətbiqi üçün əlverişli şərait yaratdı.

Məlumdur ki, internet məktəblilərdə dünyagörüşün genişlənməsinə, idraki imkanların artmasına, informasiyaların daha asan və tez əldə olunmasına imkan verən əvəzsiz vasitədir. Ancaq özünün müsbət əhəmiyyətli təsiri ilə yanaşı internet bir sıra neqativ halların meydana gəlməsinə də şərait yaratdı. Belə ki, digər modern kommunikasiya vasitələri kimi, internet də bir sıra problemlərin meydana gəlməsinə səbəb olmuş, insanların münasibətlər sistemində, təlim-tərbiyə prosesində və cəmiyyətin ayrı-ayrı sahələrində bir sıra çatışmazlıqların yaranmasına gətirib çıxartmışdır. Bu baxımdan internetin neqativ tərəflərinin öyrənilməsi bu gün üçün daha çox aktuallıq kəsb edir.

Bəzi mütəxəssislər internetin neqativ cəhətlərindən biri kimi istifadəçilərin qeyri-əxlaqi şəkilləri, yazıları və porno görüntüləri çox rahatlıqla əldə edə bilmələrini göstərirlər. Əslində, bu cəhət problemin ilk baxışda daha çox özünü büruzə verən tərəfidir. Problemin geniş planda araşdırılması onun neqativ tərəflərinin daha dərin qatlarına nüfuz etməyi və bu zəmində də mühüm qabaqlayıcı tədbirlər işləyib hazırlamağı tələb edir.

Aparılmış tədqiqatlar göstərir ki, məktəblilər və təhsil subyektləri üçün internetin yaratdığı ən ciddi problem internet asılılığıdır və internetə aludəçilik (asılılıq) istifadəçilərin təhsil və ailə münasibətlərində ciddi problemlərə səbəb olur, təlim-tərbiyə işinin təşkilini çətinləşdirir, təlimin optimallaşdırılmasında maneələr ortaya çıxarır. Belə ki, əgər istifadəçi bir ay müddətində internetdən istifadə etməməyə dözə bilmirsə, deməli, artıq o, internetdən asılılıq təhlükəsi ilə üzləşmişdir. Bu problem son vaxtlar məktəblilər arasında daha çox müşahidə edilir. İnternet aludəçiliyinin səbəb olduğu sosial-psixoloji problemlər onu digər asılılıqlar qədər təhlükəli edir və tədbirlər planın həyata keçirilməsini vacib vəzifə kimi ortaya qoyur.

Texnologiyanın inkişafı internet və kompüter istifadəçilərində nəinki bir sıra problemlərin yaranmasına, həm də əvvəlki problemlərin artmasına səbəb olur, psixoloji planda bir sıra neqativ təzahürlər doğurur. İnternetin köməyilə lazımı informasiyanın tez əldə edilməsinə və onun müsbət cəhətlərinə baxmayaraq internetin üstünlükləri onun doğurduğu neqativ təsirləri arxa plana keçirir.

Lakin nəzərə almaq lazımdır ki, virtual asılılıq və ya istifadəçilərin internet asılılığı çox ciddi sosial-psixoloji problemlərə səbəb olur, istifadəçilərin davranışına mənfi təsir göstərir, onların sosial münasibətlərində disharmoniya yaradır, depressiv halları çoxaldır. Bu baxımdan internetin mənfi təsirlərinin və onun yaratdığı problemlərin öyrənilməsi müasir dövr üçün olduqca aktualdır.

**Mövzunun işlənmə səviyyəsi**. İnternet asılılığı probleminin tədqiqinə yönəlmiş işlərin retrospektiv təhlilindən görünür ki, problemin öyrənilməsinə ötən əsrin axırlarında başlanılmasına baxmayaraq, bu sahədə xeyli sayda tədqiqatlar aparılmışdır.

Tədqiqatlar, bir tərəfdən, internet asılılığının kökləri və səbəbləri (C.Qrohon, K.Younq, İ.Qolberq və b.), digər tərəfdən belə asılılığın cins, yaş, milli mənsubiyyət, din, ölkə və s. baxımından fərqli təzahürləri araşdırılır (Hol, Patterson, Parsons, Qrifits, Kandel və b.). Bir qism işlərdə isə bu anlayışın məzmun və mahiyyətinin müəyyənləşdirilməsi istiqamətində təhlillər aparılır. Qeyd edilən istiqamətdə aparılan tədqiqatlarda problemin sosial-mədəni, davranış, şəxsiyyət, sosial-nəzarət, koqnitiv, biotibbi və s. kimi müxtəlif tərəflərinə aydınlıq gətirilməsinə cəhdlər edilir.

Konkret psixoloji tədqiqatlarda isə daha çox internetdən istifadənin insanlara mənfi təsiri öyrənilir, bunula bərabər, həm də bu təsirlərin dərəcəsi və neqativ nəticələrinin minimuma endirilməsi və ya tamamilə aradan qaldırılması yolları araşdırılır. Xüsusilə bu istiqamətdə aparılan tədqiqatlarda (Məkkan Bork, Krat və b.) belə bir qənaətə gəlinmişdir ki, internet, real həyatın əvəzedilməz və geniş imkanlara malik informasiya vasitəsi olmasına baxmayaraq, insanlarda tənhalıq hissinin yaranmasına və depressiyaya səbəb olur.

Azərbaycanda və İİR-da bilavasitə internetlə bağlı bir sıra psixoloji məsələlər ümumi şəkildə tədqiq olunmuşdur. Bununla belə müqayisəli şəkildə məktəblilərlə bağlı belə tədqiqatlar kifayət qədər deyil.

Azərbaycanda problemin tədqiqinə həsr olunmuş tədqiqatlarda (B.H.Əliyev, R.H.Qədirova, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, K.R.Əliyeva) qaldırılan məsələlərin həlli istiqamətində irəli sürülən fikir və mülahizələr qloballaşmanın sosial-psixoloji məsələlərinin öyrənilməsində, yeni texnologiyaların təlim prosesinə tətbiqində özünü göstərir. Lakin bir çox hallarda problemin sistemli şəkildə araşdırılması və birmənalı nəticələrin əldə olunması ilə bağlı fikir söyləmək mümkün olmur. Yəni bu sahədə xeyli sayda məsələlər hələ də öz həllini tapmamışdır ki, bu da tədqiqatın bir daha aktual olduğunu diqqət mərkəzinə gətirir.

**Tədqiqatın obyekti –** internet asılılığına məruz qalmış məktəblilərdir.

**Tədqiqatın predmeti** internet asılılığının məktəblilərin davranışında təzahürləri və təşəkkül xüsusiyyətləridir.

**Tədqiqatın məqsədi**. Tədqiqatın əsas məqsədi internet asılılığının yaranmasına təsir göstərən amillərin müəyyənləşdirilməsi, internet asılılığının aradan qaldırılmasının yol və vasitələrinin tapılması, eləcədə internetin məktəblilərin psixi sağlamlığına və münasibətlər sisteminə təsirinin öyrənilməsidir.

**Tədqiqatın əsas fərziyyəsi.** Məktəblilərdə internet asılılığının yaranmasına bir sıra amillərlə yanaşı, onların ümumi sağlamlıq səviyyəsi, emosional vəziyyətləri, özünəinam və özünüdərketmə səviyyəsi də ciddi şəkildə təsir göstərir.

Əsas fərziyyəyə uyğun olaraq bir neçə köməkçi fərziyyə də götürülmüşdür:

- Tehranda və Bakıda məktəbli internet istifadəçiləri arasında internet asılılığı fərqlidir.
- Məktəbli internet istifadəçilərinin internet asılılığı ilə onların fiziki sağlamlığı arasında əlaqə vardır.
- Məktəbli internet istifadəçilərinin internet asılılığı ilə onların iztirabları arasında əlaqə vardır.
- Məktəbli internet istifadəçilərinin internet asılılığı ilə ilə onların depressiyası arasında əlaqə vardır.
- Məktəbli internet istifadəçilərinin internet asılılığı ilə onların sosial fəaliyyəti arasında əlaqə vardır.
- Bakıda və Tehranda məktəbli internet istifadəçilərinin fiziki sağlamlıq səviyyəsi arasında fərq vardır.
- Bakıda və Tehranda məktəbli internet istifadəçilərinin iztirab səviyyəsi fərqlidir.
- Bakıda və Tehranda məktəbli interenet istifadəçilərinin depressiya səviyyəsi fərqlidir.
- Bakıda və Tehranda məktəbli istifadəçilərin sosial fəallıq səviyyəsi fərqlidir.

**Tədqiqatın vəzifələri.** Qarşıya qoyulmuş məqsədi həyata keçirmək üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir.

- İnternetin formalaşması istiqamətləri və təlim-tərbiyə prosesində ondan istifadə xüsusiyyətlərinin təhlilinin aparılması;
- İnternet asılılığının səbəbləri, asılılığın profilaktikasına təsir edən amillərin aşkar edilməsi;
- Statistik göstəricilər əsasında Bakıda və Tehranda internetdən aslılıq göstəricilərinin müəyyənləşdirilməsi;
- İnternetdən istifadə edən Bakı və Tehran məktəblilərinin sağlamlıq vəziyyətlərinin müqayisəli təhlilinin aparılması;
- Problemlə bağlı psixoloji və pedaqoji mənbələrin təhlil edilməsi;
- Alınmış nəticələr əsasında internetdən istifadə məktəblilər, valideynlər

və müəllimlər üçün mənfi və müsbət təsirlərinin müəyyənləşdirilməsi və internetdən düzgün istifadənin əhəmiyyəti məqamlarının aşkara çıxarılması.

**Tədqiqatın metodoloji əsasları və metodları**. Tədqiqatın metodoloji əsasını müasir psixologiya elmində, xüsusən də sosial psixologiyada mövcud təlim konsepsiyaları və müxtəlif təlim texnologiyalarının təhsil praktikasına tətbiqinə dair nəzəriyyələr təşkil edir. Tədqiqatda şagirdlərin fiziki və psixi sağlamlığına təsir edən amillərin təbiətinin müəyyən edilməsi ilə bağlı yeni təlim texnologiyaları məsələlərini araşdırmaq üçün həmin nəzəriyyələrə istinad edilmişdir. Tədqiqat prosesində müşahidə, müsahibə, anket, eləcə də statistik və müqayisəli təhlil metodlarından istifadə olunmuşdur. Tədqiqatda K.Younqun internet asılılığı anketindən, İ. Qolberqin ümumi sağlamlıq metodikasından və riyazi-statistik metodlardan istifadə olunmuşdur.

Tədqiqata Bakı və Tehran şəhərlərindən 432 internet istifadəçisi olan məktəbli (14-18 yaş) cəlb olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi**. Müasir dövrdə məktəblilərdə internet asılılığının sosial-psixoloji məsələləri araşdırılmış, internet asılılığının yaranmasına təsir göstərən amillər sistemləşdirilmiş, müqayisəli sosial-psixoloji təhlil əsasında müxtəlif etnik zəmində internet asılılığının yaratdığı psixoloji problemlər təhlil olunmuşdur.

İlk dəfə olaraq:

-Məktəblilərin texnologiyalardan səmərəli istifadəsinin və onların sosial-psixoloji sağlamlığının qorunub saxlanması üçün nəzəri və praktik əhəmiyyətli mülahizələr irəli sürülmüş;

- İnternet asılılığı məktəblilərin davranışında yaratdığı problemlər aydınlaşdırılmış, internet asılılığı ilə sosial fəaliyyət arasında əlaqənin səviyyələri müəyyənləşdirilmiş;

- Məktəbli internet istifadəçilərinin internet asılılığı ilə iztirabları, depressiyaları, fiziki sağlamlığı arasında əhəmiyyətli əlaqənin olduğu aşkar edilmişdir. İnternet asılılığı yüksək olduqda depressiyanın artması, iztirabların çoxalması, sağlamlıq vəziyyətinin zəiflədiyi müəyyən edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

- İnternet asılılığı məktəblilərin həm fiziki, həm də psixi durumunda mənfi dəyişikliyə səbəb olur. Həm də bu dəyişikliklər arasında koreliyativ əlaqə vardır.

- İnternetdən istifadənin düzgün təşkili istiqamətində elmi cəhətdən əsaslandırılmış, məqsədyönlü profilaktika və maarifləndirmə işi aparmaqla internetin məktəblilərin davranışına mənfi təsirini minimuma endirmək olar.

- İnternetdən istifadəni düzgün şəkildə təşkil etməklə məktəblilərin nəinki intellektual inkişaf səviyyəsinin yüksəldilməsinə, həm də onların bir şəxsiyyət kimi formalaşdırılmasına nail olmaq olar.

- Oğlanlara nisbətən qızlarda internetdən asılı olma ehtimalı daha yüksəkdir. Bu onunla əlaqədardır ki, istər İranda, istərsə də Azərbaycanda qızlar üçün idman və əyləncə imkanları gender stereotipləri ilə tənzimlənir və onlar üçün məhdudiyyətlər daha çoxdur.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Tədqiqatda alınan nəticələr internet asılılığı ilə bağlı elmi-metodoloji, nəzəri səviyyədə bir çox məsələlərin həlli istiqamətində faydalı, yeni elmi istiqamətlərin meydana gəlməsi üçün əsas ola bilər. Bununla yanaşı əldə olunmuş nəticələr bu sahədə mövcud olan nəzəri müdəaların zənginləşdirilməsində, şagirdlər və müəllimlər üçün elmi-praktik tövsiyələrin hazırlanmasında istifadə oluna bilər.

**Tədqiqatın praktik əhəmiyyəti**. Əldə olunmuş nəticələr internetdən istifadə edən məktəblilərə internetin mənfi və müsbət təsirlərinin müəyyənləşdirilməsi, internetdən düzgün istifadə edilməsinin əhəmiyyəti və məktəblilərin sosial-psixoloji sağlamlığının yüksəlməsi barədə valideynlərə və müəllimlərə faydalı informasiyalar verilə bilər. Həmçinin tədqiqatdan alınmış nəticələr İran və Azərbaycanın tədris müəssisələrində tətbiq edilə bilər.Tədqiqatın nəticələrindən valideynlər və müəllimlər təlim-tərbiyə prosesində istifadə edə bilərlər.

**Tədqiqatın nəticələrinin aprobasiyası**. Tədqiqatın nəticələri Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasının seminarlarında və müxtəlif konfranslarda müzakirə edilmişdir. Eyni zamanda dissertasiya işinin əsas nəticələri müəllifin müvafiq məqalə və tezislərində öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu**. Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, obyekti, predmeti, fərziyyəsi, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, elmi yeniliyi və müdafiəyə təqdim olunan əsas müddəalar şərh olunur.

Dissertasiyanın **"Sosial psixologiyada internetdən istifadə edənlərin davranış məsələlərinin tədqiqinin nəzəri-metodoloji problemləri**" adlı birinci fəsli iki yarımfəsildən ibarətdir. Dissertasiyanın I fəslinin "**İnternetin formalaşması: təlim-tərbiyə prosesində ondan istifadənin və virtual dünyanın xüsusiyyətləri"** adlanan birinci yarımfəsildə təlim-tərbiyə prosesində internetdən istifadənin və virtual dünyanın xüsusiyyətləri təhlil olunmuşdur. Burada göstərilir ki, internetin geniş istifadə imkanları və cəlbediciliyi gənclərdə ona müəyyən şəkildə bağlılığın yaranmasına səbəb olmuş, onların davranışlarında əhəmiyyətli dəyişikliklərin əmələ gəlməsinə gətirib çıxartmışdır. Məhz internetdən geniş sui-istifadə son illərdə internet

asılılığı kimi problemlər yaratmışdır. İnternet asılılığına internetdən həddindən artıq, yaxud düzgün olmayan və ya patoloji xarakter kəsb edən bir formada istifadə edilməsi kimi tərif verilir. Bəzən buna "internet asılılığı" patologiyaları və ya "virtual asılılıq" da deyilir. İnternet asılılığının yaranmasına ən çox təsir edən amillər- internet-klublar, pornoqrafik filmlərə baxmaq, qumar və onlayn oyunlardır. Bunlar fərdlərin sağlam münasibətlərinin, hisslərinin və nəticə etibarilə onların psixikasının və davranışının pozulmasına gətirib çıxardır. Bütün bunlarla yanaşı bu yarımfəsildə internetin yarnmasının mərhələləri təsvir edilmiş, onun inkişafı nəticəsində cəmiyyətdə baş verən dəyişikliklər diqqət mərkəzinə gətirilmişdir.

Dissertasiyanın I fəslinin " **İnternet asılılığının səbəbləri, müalicə və profilaktikaya təsir edən faktorlar"** adlanan ikinci yarımfəslində internet asılılığının formalaşması xüsusiyyətləri və təzahür formaları araşdırılır. Qeyd olunur ki, internet məkanlarının əksəriyyətində istifadəçilər özlərini internet yaşayış tərzinə alışdırırlar. Belə ki, onlar vaxtlarının mümkün qədər böyük bir hissəsini internetə ayırmaq istəyirlər. Bu da onların öz şəxsi həyatlarına bəzən əhəmiyyət verməmələrinə və ona laqeyd yanaşmalarına səbəb olur. Onlar öz asılılıqlarını dəqiq şərh edə bilmirlər.

Fərdin internetə olan hədsiz marağı və güclü meyli patoloji baxımdan sağlam, asılılıq gətirən, yaxud bunlar arasındakı bir şey ola bilər. Müxtəlif amillər fərdin bu pillədə harada dayandığını müəyyən edir. Bu yarımfəsildə həmçinin fərdin internetdəki fəaliyyətlərinin keyfiyyətcə sağlam olub-olmadığını müəyyən etməyə kömək edən altı amil təsvir edilir (mövcud ehtiyacların sayı və növləri, əsas ehtiyaclardan məhrumolma həddi, internet fəaliyyətlərinin növü, daxili hisslər, təşviş və iztirab, ehtiyaclarla bağlı şüurlu informasiya, internet aludəçiliyinin müddəti və mərhələləri).

Aparılmış tədqiqatlarda Deyvis və b. (2001) internet asılılığın simptomlarını iki qrupa bölürlər: davranış simptomları və aşkar koqnitiv simptomlar.

K. Younq (1999) bu fikirdədir ki, internet asılılığı asılılıq növü deyil daha çox emosional bir patologiyadır. İnternet asılılığının digər əlamətləri görüşlərin yaddan çıxarılmasından, xarici görünüşə və şəxsi gigiyenaya diqqət verilməməsindən, dostcasına söhbətlərdə əsəbiliyin yaranmasından ibarətdir.

İnternet asılılığı olanlara kömək və onların müalicəsi hazırda ilkin mərhələdədir və psixoterapevtik müalicə üsulları ilə əlaqədar tədqiqatlar kifayət qədər aparılmayıb. Hazırda Qərb öz hədəflərinə nail olmaq üçün müxtəlif informasiya vasitələrindən, xüsusilə də internetdən istifadə edir. Gənclər də milli informasiya vasitələrində cəlbedici proqramlar olmadığından xarici saytlara üz tutur və Qərb mədəniyyətinin təsiri altına düşürlər. Lakin internetdə maraqlı mühitlər yaratmaqla gəncləri informasiya və milli saytlara yönəltmək olar.

Dissertasiya işinin "**İnternetdən istifadə edən məktəblilərin sosial – psixoloji problemləri**" adlanan ikinci fəsli iki yarımfəsildən ibarətdir. Burada ilk növbədə internet asılılığı və internetdən istifadə edən məktəblilərin psixi-fiziki sağlamlığı məsələləri araşdırılır.

Dissertasiyanın II fəslinin **"İnternet asılılığı və internetdən istifadə edən məktəblilərin psixi-fiziki sağlamlığı arasında bağlılıq"** adlanan birinci yarımfəslində internet asılılğının yaranma səbəbləri və onun yaratdığı asılılığın məktəblilərin psixoloji və fiziki sağlamlığına təsiri araşdırılır. Burada qeyd olunur ki, internet asılılığı zamanı depressiya da xroniki və ya davamlı əsəbi-psixi bir fiziki göstərici kimi (yorucu başağrıları, iştahsızlıq, yuxusuzluq, qəbizlik, qan təzyiqinin düşməsi və bu qəbildən olan digər hallar) və bir psixi göstərici kimi (gücün tükənməsi, kiçiklik, bacarıqsızlıq, qəmginlik və bu qəbildən olan digər hallar) üzə çıxır. Belə asılılıq zamanı uşaqlarda və yeniyetmələrdə də depressiya əlamətlərinin aydın şəkildə özünü göstərməsi mümkündür. Araşdırmalar göstərir ki, dinə bağlı olan xəstələr daha az depressiyaya tutulur. Bu xəstəliyə tutulduqda isə dərmanlara çox yaxşı reaksiya verirlər. Bu yarımfəsildə həm də internet asılılıqla bağlı belə halların aradan qaldırılması yolları araşdırılır və həm də bu problem ilə əlaqələndirilir.

Dissertasiyanın II fəslinin **"İnternetdən istifadə edən məktəblilərin sosial-psixoloji xüsusiyyətləri"** adlanan ikinci yarımfəsli məktəblilərin sosial-psixoloji xüsusiyyətlərinin təhlilinə həsr olunmuşdur. Bu yarımfəsildə ilk növbədə yeniyetmə yaşının xüsusiyyətləri araşdırılır. Göstərilir ki, yeniyetməlik dövründə bir sıra anatomik-fizioloji xüsusiyyətlər özünü göstərir: boy sürətlə (ildə 6-8 sm) artır, ürək-damar sistemi isə zəif inkişaf edir, cinsi yetişmə baş verir.

Bu yaşda psixi inkişafda yeni keyfiyyət dəyişiklikləri baş verir: yeniyetmələrdə məntiqi hafizə, ixtiyari diqqət, mücərrəd təfəkkür, təxəyyül inkişaf edir. Yeniyetmə yaşında bəzi yeni psixoloji törəmələr özünü göstərir. Buraya böyüklük hissi, qızlarla oğlanların dostluğu, kollektivdə yaxşı mövqe tutmaq və məşhurlaşmaq meyli, özünüdərketmə tələbatı və s. daxildir. Yeniyetmələrdə ünsiyyət və özünütəsdiq tələbatı güclüdür. Buna görə də məktəb və ailə onları birgə tədbirlərə, ictimai-faydalı işlərə, əmək və ünsiyyətə geniş cəlb etməklə bu əsas tələbatın ödənməsinə şərait yaratmalıdır. Məhz bu yaş dövründə ortaya çıxmış boşluqların doldurulması məqsədi ilə yeniyetmələrin internetdən sui-istifadəsi güclənir. Sonda isə internetdən asılılıq qaçılmaz hala çevrilir.

Dissertasiyanın "**İnternetdən istifadə edən məktəblilərin davranışına təsirinin eksperimental tədqiqi**" adlanan III fəsli üç yarımfəsildən ibarətdir. Dissertasiyanın III fəslinin **"Tədqiqatda istifadə olunmuş me-**

**todların təhlili”** adlanan birinci yarımfəslində tədqiqatda istifadə olunmuş metodların təhlili aparılır. Məktəblilərin internet asılılığının səviyyəsini müəyyən etmək üçün əvvəlcə K. Younqun internet asılılığı və İ. Qoldberqin ümumi sağlamlıq sorğu anketindən istifadə edildi. Bu anket internet istifadəçilərinin ümumi fiziki sağlamlıq, iztirab, depressiya və sosial fəallıqdan ibarət olan dörd davranış dəyişənini araşdırmağı və internetdən həddindən artıq istifadənin təsirini müəyyənləşdirməyi nəzərdə tutur. Tədqiqatda iştirak edən 432 nəfərdən 220 nəfəri (59.9%) Tehran və 212 nəfəri (49.1%) Bakı məktəbliləri olmuşdur. Tədqiq olunanlar 14-18 yaş civarında olan məktəblilərdir. Sınanılanlar seçilərkən təlim fərqləri, o cümlədən, təhsil dövrləri arasındakı fərqə diqqət yetirilmişdir. Nəzərə almaq lazımdır ki, İranda 18 yaşlı məktəblilər son təhsil dövründədir. Azərbaycanda isə 18 yaşında olan fərdlər birinci kurs tələbələridir. Bu səbəbdən də Bakıda məktəblilərlə yanaşı, 18 yaşlı tələbələr də tədqiq olunanlar kimi təsadüfi olaraq seçilmişdi.

Təhsil səviyyəsi baxımından respondentlərin 59 nəfəri (13.7%) birinci səviyyədə, 108 nəfəri (25%) ikinci səviyyədə, 59 nəfəri (13.7%) üçüncü səviyyədə təhsil alırlar. Respondentlərin 198 nəfəri (45.8%) dördüncü səviyyədə (Tehran) təhsil alan və universitetin birinci kurs tələbəsidirlər (Bakıda). Eyni zamanda respondentlərdən 8 nəfəri (1.9%) təhsil səviyyəsi ilə əlaqədar olan suala cavab verməyiblər. Göründüyü kimi respondentləri əsas hissəsi dördüncü səviyyədə təhsil alanlar və I kurs tələbələridirlər.

Apardığımız tədqiqat göstərdi ki, internetdən istifadə zəminində cavablar aşağıdakı kimi olunmuşdur: 185 nəfər (42.8%) hər gün 0-4 saat, 92 nəfər (21.3%) 4-8 saat, 34 nəfər (7.9%) 8-12 saat, 19 nəfər (4.4%) 12-16 saat internetlə məşğul olduğunu bildiribdir. Qeyd edilənləri nəzərə alaraq demək olar ki, orta hesabla hər respondent gün boyunca 3 saat internetlə məşğul olur. Əlbəttə, gün boyunca 0-4 saat İnternetlə məşğul olanların sayı digər vaxt intervalını qeyd edənlərlə müqayisədə daha çoxdur. Burada qeyd etmək lazımdır ki, K.Younqun fikrincə həftə boyunca 38 saatdan və yaxud gün boyunca 8 saatdan çox İnternetlə məşğul olmaq "İnternetdən asılı olmaq" deməkdir. Deməli öyrəndiyimiz seçmə qrupun üzvlərinin 21.3% internetdən asılı olmaq astanasındadırlar (yəni gün boyunca təxminən 8 saat hüdudlarında internetlə məşğul olurlar) və 7.9% internetdən asılıdırlar (hər gün 8-12 saat internetlə məşğul olurlar).

Dissertasiyanın III fəslinin **“İnternet asılılığı və internetdən istifadə edən məktəblilərin ümumi sağlamlığı arasında bağlılıq”** adalan ikinci yarımfəslində fərziyyələr qoyulur və onların yoxlanılması həyata keçirilir.

Tədqiqatda ilkin olaraq belə bir fərziyyə qoyulmuşdur ki, Tehranda və Bakıda məktəbli internet istifadəçiləri arasında internet asılılığı fərqlidir.

Tehranda və Bakıda məktəbli internet istifadəçiləri arasında İnternet asılılığını göstəriciləri

Cədvəl 3.2.1

| | Yer | Say | Orta qiymət | Standartdan kənar çıxma | Orta standart səhvi |
|---|---|---|---|---|---|
| İnternet asılılığı | Tehran | 109 | 36/4404 | 13/40220 | 0.04755 |
| | Bakı | 77 | 43/7532 | 16/36922 | 0.04499 |

Tehranda və Bakıda məktəbli internet istifadəçiləri arasında internet asılılığını korrelyativ göstəriciləri

Cədvəl 3.2.2

| T- testi orta qiymətin fərqini yoxlamaq üçün | | | | | | | iki qrupun varyans bərabərliyi üçün Loin testi | | İnternet asılılığı |
|---|---|---|---|---|---|---|---|---|---|
| Konfidens intervalı 95% | | Varyans fərqi | Orta qimətin fərqi | Signific-ant | Azadlıq dərəcəsi | T-nin miqdarı | Signifi-cant | f | |
| -2.99527 | -11.63049 | 2.18481 | -7.31288 | 0.001 | 184 | 3.342 | 0.620 | 0.247 | Varyans bərabərliyi |
| -2.83622 | -11.78914 | 2.26446 | -7/31288 | 0.002 | 142.530 | -3.229 | | | Varyans qeyri - bərabərliyi |

Cədvəl 3.2.2-dən görünür ki, qiymət şkalasına əsasən tehranlı respondentlərdə orta qiymət 36.4404 və bakılı respondentlərdə orta qiymət 43.7532 olmuşdur ki, bu da, internetdən az asılı olmaq deməkdir. Ümumilikdə, hər iki qrupa aid orta qiymət internetdən cüzi asılılığın olduğunu göstərir. Eyni zamanda, cədvəl 3.2.2-dən görünür ki, "loin" ölçüsünə əsasən "sig" (əlaqə səviyyəsi) 0.620% bərabər olmuşdur, lakin, varyansların qeyri-bərabərliyini nəzərə alsaq sig = 0.001bərabərliyi alınır. Bu da birinci fərziyyənin öz təsdiqini tapması deməkdir. Qeyd etmək lazımdır ki, sig=0.005-dən kiçik olması irəli sürülmüş fərziyyənin təsdiqi deməkdir. Bu nəticəyə əsasən " internetdən asılılıq səviyyəsi tehranlı şagirdlər ilə bakılı şagirdlər arasında fərqlidir" fərziyyəsi sübut olur və aydın olur ki, bakılı şagirdlər tehranlı şagirdlərə nisbətən daha çox internetdən istifadə edirlər.

Tədqiqatda belə bir fərziyyə də götürülmüşdür ki, məktəbli internet istifadəçilərinin internet asılılığı və fiziki sağlamlığı arasında əlaqə vardır.

Məktəbli internet istifadəçilərinin internet asılılığı və fiziki sağlamlığı arasında əlaqənin göstəriciləri

Cədvəl 3.2.3

| | | | Sağlamlıq | İnternet asılılığı |
|---|---|---|---|---|
| Spirmen korrelyasiya əmsalı | Sağlamlıq | Korrelyasiya əmsalı | 1.000 | 0.280** |
| | | Significant | . | 0/000 |
| | | Say | 400 | 174 |
| | İnternet asılılığı | Korrelyasiya əmsalı | 0.280** | 1.000 |
| | | Significant | 0/000 | . |
| | | Say | 174 | 186 |
| **. əhəmiyyətlilik 2 tərəflidir( 0.01səviyyəsində). | | | | |

Cədvəl 3.3.2-in nəticələrinə əsasən Sig = 0.000 olduğundan fərziyyə öz təsdiqini tapmış olur. Sig ≤0.005 olması yoxlanılan fərziyyənin tam doğruluğu və öz təsdiqini tapdığının göstəricisidir. İki dəyişən arasındakı korrelyasiya əmsalı isə 0.280 olmuşdur. Bu da 1% deviasiya əmsalı səviyyəsində dəyişənlərarası əlaqənin olduğunu göstərir. Yəni internetdən asılılıq ilə ümumi sağlamlıq səviyyəsi arasında tərs mütanasiblik vardır. Asılılıq yüksək olduqca sağlamlıq zəifləyə bilər.

Üçüncü fərziyyə: məktəbli internet istifadəçilərinin internet asılılığı və iztirabı arasında əlaqə olduğu göstərilmişdir.

Məktəbli internet istifadəçilərinin internet asılılığı və iztirabı arasında əlaqənin korrelyativ göstəriciləri

Cədvəl 3.2.4

| | | | Sağlamlıq | İnternet asılılığı |
|---|---|---|---|---|
| Spirmen korrelyasiya əmsalı | İnternet asılılığı | Korrelyasiya əmsalı | 1.000 | 0.306** |
| | | Significant | | 0/000 |
| | | Say | 186 | 179 |
| | İztirab | Korrelyasiya əmsalı | 0.306** | 1.000 |
| | | Significant | 0/000 | . |
| | | Say | 179 | 414 |
| **. əhəmiyyətlilik 2 tərəflidir ( 0.01səviyyəsində). | | | | |

Cədvəl 3.2.4-ün nəticələrinə əsasən, Sig = 0.000 olduğundan fərziyyə öz təsdiqini tapmışdır. Çünki, Sig ≤0.005 olması yoxlanılan fərziyyənin doğru olduğu və öz təsdiqini tapdığını göstərir. 414 nəfər respondentin cavablarında iki dəyişən arasındakı korrelyasiya əmsalı 0.306 olmuşdur. Bu da 1% deviasiya səviyyəsində dəyişənlərarası əlaqənin olduğunu göstərir. Yəni internetdən asılılıq ilə həyəcan arasında düz mütənasiblik vardır. Asılılıq yüksək olduqca həyəcan və həyəcanın varlığını təsdiq edən əlamətlər (yuxusuzluq, stress, əsəbilik, qorxu, panik və səbəbsiz narahatçılıq) daha intensiv və güclü formada müşahidə edilir.

Dördüncü fərziyyə: məktəbli internet istifadəçilərinin internet asılılığı və depressiyası arasında əlaqə vardır.

Məktəbli internet istifadəçilərinin internet asılılığı və depressiyası arasında əlaqənin korrelyativ göstəriciləri

Cədvəl 3.2.5

| | | | Sağlamlıq | İnternet asılılığı |
|---|---|---|---|---|
| Spirmen korrelyasiya əmsalı | İnternet asılılığı | Korrelyasiya əmsalı | 1.000 | 0.373** |
| | | Significant | . | 0/000 |
| | | Say | 186 | 177 |
| | Depressiya | Korrelyasiya əmsalı | 0.373** | 1.000 |
| | | Significant | 0/000 | . |
| | | Say | 177 | 414 |
| ** əhəmiyyətlilik 0,01səviyyəsində iki tərəflidir. | | | | |

Cədvəl 3.2.5-in nəticələrinə əsasən Sig = 0.000 olduğundan fərziyyə öz təsdiqini tapmışdır və bu iki dəyişən (internetdən asılılıq və depressiya) arasında əlaqənin mövcudluğu qəbul edilir. Çünki, Sig ≤0.005 olması yoxlanılan fərziyyənin doğru olduğu və öz təsdiqini tapdığını göstərir. İki dəyişən arasındakı korrelyasiya əmsalı 0.373 olmuşdur. Bu da 1% deviasiya əmsalı səviyyəsində dəyişənlərarası əlaqənin olduğunu göstərir. Yəni internetdən asılılıq ilə həyəcan arasında düz münasibət əlaqəsi var. İnternetdən asılılıq depressiyaya təsir edir və gərginliyə səbəb ola bilir.

Beşinci fərziyyə: Məktəbli internet istifadəçilərinin internet asılılığı və sosial fəliyyəti arasında əlaqə vardır.

Məktəbli internet istifadəçilərinin internet asılılığı və sosial fəaliyyəti arasındakı əlaqənin korrelyativ göstəriciləri

Cədvəl 3.2.6

<table>
<tr><td colspan="3"></td><td>Sağlamlıq</td><td>İnternet asılılığı</td></tr>
<tr><td rowspan="6">Spirmen korrelyasiya əmsalı</td><td rowspan="3">İnternet asılılığı</td><td>Korrelyasiya əmsalı</td><td>1.000</td><td>0.064**</td></tr>
<tr><td>Significant</td><td>.</td><td>0/401</td></tr>
<tr><td>Say</td><td>186</td><td>174</td></tr>
<tr><td rowspan="3">İctimai fəaliyyət</td><td>Korrelyasiya əmsalı</td><td>0.064**</td><td>1.000</td></tr>
<tr><td>Significant</td><td>0/401</td><td>.</td></tr>
<tr><td>Say</td><td>174</td><td>409</td></tr>
<tr><td colspan="5">** əhəmiyyətlilik 0,01səviyyəsində iki tərəflidir.</td></tr>
</table>

Cədvəl 3.2.6-nın nəticələrinə əsasən, Sig = 0.401 olduğundan fərziyyə öz təsdiqini tapmayır və rədd edilir. Bu iki dəyişən (internetdən asılılıq və sosial fəaliyyətin zənginliyi) arasında ciddi əlaqənin mövcudluğu qəbul edilmir. Çünki, Sig $\geq$ 0.005 olması yoxlanılan fərziyyənin təsdiq edilmədiyini göstərir. İki dəyişən arasındakı korrelyasiya əmsalı 0.064 olmuşdur. Bu da 1% deviasiya səviyyəsində dəyişənlərarası əlaqənin olduğunu göstərir amma bu əlaqə olduqca zəifdir və ciddi əhəmiyyət kəsb etmir.

Dissertasiyanın III fəslinin **“İnternetdən istifadə edən məktəblilərin internet asılılığının (Bakı və Tehranda) müqayisəli təhlili”** adalan üçüncü yarımfəslində internet istifadəçilərinin sağlamlıq səviyyəsi psixoloji tədqiqatın obyektinə çevrilir. Burada belə bir fərziyyə əsas gütürülür ki, Bakıda və Tehranda məktəbli internet istifadəçilərinin fiziki sağlamlıq səviyyəsi arasında fərq vardır.

Bakıda və Tehranda məktəbli internet istifadəçilərinin fiziki sağlamlıq səviyyəsi arasında əlaqənin göstəriciləri

Cədvəl 3.3.1

| | Yer | Say | Orta qiymət | Standartdan kənarçıxma | Orta standart səhvi |
|---|---|---|---|---|---|
| Fiziki sağlamlıq | Tehran | 217 | 1/9329 | 0/53417 | 0.03626 |
| | Bakı | 183 | 1/8923 | 0/51984 | 0.03843 |

Bakıda və Tehranda məktəbli internet istifadəçilərinin fiziki sağlamlıq səviyyəsinin orta qiymətinin göstəriciləri

Cədvəl 3.3.2

| T- testi orta qimətin fərqini yoxlamaq üçün | | | | | | | iki qrupun varyans bərabərliyi üçün Lion test | | İnternet asılılığı |
|---|---|---|---|---|---|---|---|---|---|
| Konfidens intervalı 95 % | | Varyans fərqi | Orta qiymətin fərqi | Signifi cant | Azadlıq dərəcəsi | T-nin miqdarı | Signific ant | f | |
| Yuxaı limit | Aşağı limit | | | | | | | | |
| 0.14469 | -0.06353 | 0.05296 | 0.04058 | 0.444 | 398 | 0.766 | 0.625 | 0.240 | Varyans bərabərliyi |
| 0.14446 | -0.06330 | 0.06330 | 0.04058 | 0.443 | 398.927 | 0.768 | | | Varyans qeyri-bərabərliyi |

Bu fərziyyəni yoxlamaq üçün orta qiymətin müqayisəsi üsulundan istifadə edilmişdir. İnternetdən istifadə edən birinci qrupda (tehranlı şagirdlər) fiziki sağlamlıq əmsalı orta balla 1.9329 və ikinci qrupda (bakılı şagirdlər) 1.8923 olmuşdur. "Loin" ölçüsünə əsasən "sig" (əlaqə səviyyəsi) 0.625 olmuşdur. Nəzərə alsaq ki, 0.625>0.005 olanda, 95% əminliklə iki qrupun fiziki sağlamlığı arasında ciddi bir fərqin olmadığını söyləmək olar.

Yuxarıda da qeyd etdiyimiz kimi hər iki qrupda internetdən asılılıq az səviyyədə olmuş və bu sahəyə aid orta qiymət arasında fərq cüzidir (tehranlı respondentlərdə 36.4404 və bakılı respondentlərdə 43.7532). Bu faktoru nəzərə aldıqda iki qrup respondentin fiziki sağlamlıq vəziyyətində fərqin az və cüzi olmasının təbii və gözlənilən olduğunu söyləmək olar. Yəni bakılı şagirdlərdə fiziki sağlamlıq tehranlı şagirdlərlə müqayisədə az miqdarda aşağıdır və bu fərq əhəmiyyətli deyil.

Tədqiqatın bu mərhələsində istinad olunmuş ikinci fərziyyə belə götürülmüşdür: Tehranda və Bakıda məktəbli internet istifadəçilərinin iztirab səviyyəsi fərqlidir.

Tehranda və Bakıda məktəbli internet istifadəçilərinin iztirab səviyyəsinin göstəriciləri

Cədvəl 3.3.3

| | Yer | Say | Orta qiymət | Standartdan kənarçıxma | Orta standart səhvi |
|---|---|---|---|---|---|
| İztirab | Tehran | 216 | 2/0860 | 0/69889 | 0.04755 |
| | Bakı | 198 | 2/1234 | 0/63312 | 0.04499 |

Cədvəl 3.3.3-də iki qrupdakı məktəbli internet istifadəçilərinin iztirab səviyyəsinin göstəriciləri əks olunur. Birinci qrupun (Tehran) orta göstəriciləri 2.0860 və ikinci qrupun (Bakı) orta göstəriciləri 2.1234-ə bərabərdir. Standartdan kənaraçıxma birinci qrup üçün 69889 və ikinci qrup üçün 63312-ə bərabərdir. Həmçinin orta standart xətası birinci qrup üçün 04755 və ikinci qrup üçün 04499-dur.

Tehranda və Bakıda məktəbli internet istifadəçilərinin
iztirab səviyyəsinin orta qiymətləri

Cədvəl. 3.3.4

| T- testi orta qiymətin fərqini yoxlamaq üçün | | | | | | | Lun testi iki qurupun varyans bərabərliyi üçün | | iztirab |
|---|---|---|---|---|---|---|---|---|---|
| Konfidens intervalı 95% | | Varyans fərqi | Orta qiymətin fərqi | Signifi cant | Azadlıq dərəcəsi | T-nin miqdarı | Signifi cant | f | |
| Yuxarı limit | Aşağı limit | | | | | | | | |
| 0.09184 | -0.16664 | 0.06575 | -0.03740 | 0.570 | 412 | 0.569 | 0.136 | 2.235 | Varyans bərabərliyi |
| 0.0912 | -0.16609 | 0.06547 | -0.03740 | 0.568 | 411.945 | 0.571 | | | Varyans qeyri-bərabərliy |

İnternetdən istifadə edən tehranlı şagirdlərdə həyəcan səviyyəsinə görə orta bal 2.0860 və bakılı şagirdlərdə 2.1234 olmuşdur. Göründüyü kimi cüzi fərqlə bakılı şagirdlərdə həyəcan əmsalı yüksək olduğunu demək olar. Lakin müqayisə zamanı sig = 0.136 olduğunnu və bu rəqəmin 0.005-dən böyük olduğunu nəzərə alaraq 95% əminliklə demək olar ki, hər iki qrupda həyəcan səviyyəsi oxşardır və mövcud fərq cüzidir. Deməli yeddinci fərziyyə öz təsdiqini tapmayıb və internetdən istifadə edən bakılı şagirdlərdə həyəcan səviyyəsi tehranlı şagirdlərə nisbətən ciddi dərəcədə yuxarı olması fikri təsdiq edilmir. Bütün bunlarla yanaşı tədqiqatda belə bir fərziyyəyə də istinad olunmuşdur ki, Bakıda və Tehranda məktəbli interenet istifadəçilərinin depressiya səviyyəsi fərqlidir.

Bakıda və Tehranda məktəbli internet istifadəçilərinin depressiya
səviyyəsinin göstəriciləri

Cədvəl 3.3.5

| | Yer | Say | Orta qiymət | Standartdan kənarçıxma | Orta standart səhvi |
|---|---|---|---|---|---|
| Depressiya | Tehran | 213 | 1/8263 | 0/79794 | 0.05467 |
| | Bakı | 201 | 1/8607 | 0/79648 | 0.05618 |

Bakıda və Tehranda məktəbli internet istifadəçilərinin depressiya səviyyəsinin orta qiymətləri

Cədvəl 3.3.6

| T- testi orta qiymətin fərqini yoxlamaq üçün | | | | | | | Lun testi iki qurupun varyans bərabərliyi üçün | | Depressiya |
|---|---|---|---|---|---|---|---|---|---|
| Konfidens intervalı 95% | | Varyans fərqi | Orta qiymətin fərqi | Significant | Azadlıq dərəcəsi | T-nin miqdarı | Significant | f | |
| Yuxarı limit | Aşağı limit | | | | | | | | |
| 0.11970 | -0.18851 | 0.07840 | -0.03441 | 0.661 | 412 | -0.439 | 0.596 | 0.281 | varyans bərabərliyi |
| 0.11969 | -0.18851 | 0.07839 | -0.03441 | 0.661 | 410.698 | -0.439 | | | varyans qeyri-bərabərliyi |

İnternetdən istifadə edən birinci qrupda (Tehran) depressiya əmsalı orta balla 1.8263 və ikinci qrupda (Bakı) 1.8607 olunmuşdur. Göründüyü kimi cüzi fərqlə bakılı şagirdlərdə depressiya əmsalı yüksəkdir. Lakin müqayisə zamanı sig = 0.596 olduğunnu və bu rəqəmin 0.005-dən böyük olduğunu nəzərə alaraq 95% əminliklə demək olar ki, hər iki qrupda depressiya səviyyəsi oxşardır və mövcud fərq cüziidir. Deməli bu fərziyyə öz təsdiqini tapmayıb və internetdən istifadə edən bakılı şagirdlərdə depressiya səviyyəsi tehranlı şagirdlərə nisbətən ciddi dərəcədə yuxarı olması fikri təsdiq edilmir. Nəhayət tədqiqatda sonuncu fərziyyə belə qoyulmuşdur: Bakıda və Tehranda məktəbli istifadiçilərin sosial fəallıq səviyyəsi fərqlidir.

Bakıda və Tehranda məktəbli internet istifadiçilərin sosial fəallıq səviyyəsinin göstəriciləri

Cədvəl 3.3.7

| | Yer | Say | Orta qiymət | Standartdan kənarçıxma | Orta standart səhvi |
|---|---|---|---|---|---|
| Sosial fəaliyyət | Tehran | 211 | 2/1219 | 0/58988 | 0.04061 |
| | Bakı | 198 | 2/3088 | 0/58706 | 0.04172 |
| | Yer | Say | Orta qiymət | Standartdan kənarçıxma | Orta standart səhvi |
| Sosial fəaliyyət | Tehran | 211 | 2/1219 | 0/58988 | 0.04061 |
| | Bakı | 198 | 2/3088 | 0/58706 | 0.04172 |

Cədvəl 3.3.7-də iki qrupdakı məktəbli internet istifadəçilərinin sosial fəallıq səviyyəsini göstəriciləri əks olunur. Birinci qrupun (Tehran) orta göstəricisi 2.1219 və ikinci qrupun (Bakı) orta göstəricisi 2.3088-ə bərabərdir. Birinci qrup üçün standartdan kənaraçıxma 58988 və ikinci qrup üçün standartdan kənaraçıxma 0,58706-ya bərabərdir. Eyni zamanda orta standart xətası birinci qrup üçün 0,4061 və ikinci qrup üçün 0,4172-yə bərabərdir.

Bakıda və Tehranda məktəbli internet istifadiçilərin sosial fəallıq səviyyəsinin göstəricilərinin orta qiymətləri

Cədvəl 3.3.8

| T- testi orta qimətin fərqini yoxlamaq üçün | | | | | | | Lun testi iki qurupun varyans bərabərliyi üçün | | İctimai fəaliyyət |
|---|---|---|---|---|---|---|---|---|---|
| Konfidens intervalı 95% | | Varya-ns fərqi | Orta qiymətin fərqi | Signifi-cant | Azadlıq dərəcəsi | T-nin miqdarı | Signi-ficant | f | |
| Yuxarı limit | Aşağı limit | | | | | | | | |
| -0.07246 | -0.30140 | 0.05823 | 0.18693 | 0.001 | 407 | -3.210 | 0.780 | 0.078 | varyans bərabərliyi |
| -0.07248 | -0.30139 | 0.0582 | 0.18693 | 0.001 | 405.589 | -3.211 | | | varyans qeyri-bərabərliyi |

İnternetdən istifadə edən birinci qrupda (Tehran) sosial fəaliyyət əmsalı 2.1219 və ikinci qrupda (Bakı) 2.3088 olmuşdur. Göründüyü kimi cüzi fərqlə bakılı şagirdlərdə sosial fəaliyyət əmsalı tehranlı şagirdlərdən çoxdur. Lakin müqayisə zamanı sig = 0.780 olduğunnu və bu rəqəmin 0.005-dən böyük olduğunu nəzərə alaraq 95% əminliklə demək olar ki, hər iki qrupda sosial fəaliyyət əmsalı oxşardır və mövcud fərq cüzidir. Başqa sözlə doqquzuncu fərziyyə öz təsdiqini tapmayıb və internetdən istifadə edən bakılı şagirdlərdə sosial fəaliyyət əmsalının tehranlı şagirdlərə nisbətən ciddi dərəcədə yuxarı olması fikri təsdiq edilmir.

Psixoloji ədəbiyyatın təhlili və apardığımız eksperiment aşağıdakı **nəticələrə** gəlməyə imkan verir:

- İnternetdən asılılıq sosial-psixoloji pozuntu hesab edilir ki, onun da əsas əlamətləri sosial əlaqələrin məhdudlaşması, emosional pozuntular, dözümsüzlük, sosial fəallıqdan təcridolmadır.
- İnternetdən asılılıq problemi üzrə ekspertlərin fikrincə, həftədə 2-3 saat internetdən istifadə normal haldır. İstifadə müddətinin 5-8 saata qədər artması isə asılılıq əlamətidir və istifadəçinin bu vəziyyəti patoloji baxımdan öyrənilməlidir.
- İnternetdən asılılığın əlamətləri digər asılılıq növləri kimi sosial-

psixoloji pozuntu və nizamsızlıqla, təcrid meyli ilə (stress, həyəcan, tənhalıq meyli və passivlik), emosional pozuntularla (depressiya, əsəbilik və aqressiya), sosial əlaqə və münasibətlərdə pozuntu ilə (sosial münasibətlərin kəmiyyət və keyfiyyət baxımından zəifləməsi) müəyyən edilir.

- Qızlar asudə vaxtlarını internetdə keçirməyə daha çox sövqlənmiş olurlar. Oğlanların internetdən asılılığı, əsasən, internetdə seks-çat, kiberseks və aqressiyaya səbəb olan oyunlarla bağlıdır. Qızların sosial şəbəkə və çat (müzakirə-söhbət) fəaliyyətləri daha çox dostluq, dəstək xarakterlidir və sosial əlaqələri genişləndirmək məqsədi ilə bağlıdır.
- İnternetdən istifadə müddətinin öyrənilməsi göstərir ki, respondentlər internetdən ümumi olaraq gün ərzində orta hesabla 3 saat istifadə edirlər. Respondentlərin əsas hissəsi (42.8%) internetdən gündəlik 0-4 saat, 21.3% isə 8 saat istifadə etdiyini qeyd etmişdir. İkinci qrup, demək olar ki, internetdən asılılıq təhlükəsi ilə qarşı-qarşıyadırlar. Bildiyimiz kimi, K.Younq konsepsiyasına əsasən, internetdən asılılığın bir əlaməti həftə boyunca 38 saat və yaxud gün boyunca 8 saat iiternetdən istifadədir. Beləlǝri internetdən asılı şəxslər hesab edilirlər. Respondentlərin 34 nəfəri (7.9%) İnternetdən gündə 8-12 saat istifadə edirlər. Onların internetdən asılı olduğunu tam əminliklə təsdiq etmək olar.
- İnternetdən asılılıq problemi Azərbaycanda və İranda digər ölkələrdən daha aşağı səviyyədədir. 2010-cu ildə tələbələrin internetdən asılılıq əmsalı Amerikada 13%, Tayvanda 10% və Tailandda 15% olmuşdur. İnternetdən əldə edilmiş məlumata əsasən, xarici ölkələrin əksəriyyətində intenetdən asılılıq əmsalı 13-18 faiz arasındadır.
- Tədqiqatın nəticələrinə, əsasən, həyatda daha çox problemi olan insanlar internet və kompüterlərdən istifadəyə daha çox da vaxt ayırırlar. Onların problemlərini müəyyənləşdirmək valideyn və müəllimlərin əsas vəzifələrindən biridir. Bu problemlər müəyyən olduqdan sonra onların həll yollarını müəyyən etmək ən vacib mərhələdir. Bu zaman internetdən daha rasional və məqsədyönlü istifadə üçün şərait yaradılmalıdır. Emosional intellektin və özünüdərk hissinin gücləndirilməsi bu mərhələnin ən vacib addımlarından biridir.

Aparılmış tədqiqatda əldə edilmiş nəticələrə əsasən aşağıdakılar tövsiyə edilir:

- Valideyn və müəllimlər uşaq və gənclərin internetdən asılı olduqlarını göstərən əlamətlərə daha həssas yanaşmalıdırlar. Bu əlamətlərə misal olaraq həddindən artıq yorğunluq, təhsil fəaliyyəti və nəticələrinin zəifləməsi, digər əyləncə və fəaliyyətlərə həvəssiz yanaşma, öz yaşıdlarına qatılmamaq, böyüklərin istəklərinə qarşı laqeydlik aiddir.
- Valideyn və müəllimlər şagirdlərin internetdən istifadəsini həm kəmiyyət, həm də keyfiyyət etibarı ilə qiymətləndirməyi nəzarətdə saxlama-

lıdırlar. Onlar şagirdləri internetdən daha səmərəli istifadə etməyə sövq etməlidirlər. Bunun üçün şagirdləri məlumatlandırmaq effektiv metod hesab edilir.

- Valideyn kompüteri nəzarət edilməsi mümkün olan bir yerdə qoymalı və beləliklə uşaqların kompyuterdən istifadəsinə nəzarət etmək şəraitini yaratmalıdır.

Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı **əsərlərində** öz əksini tapmışdır:


1. Влияние интернета на социально-психическое поведение азербайджанской молодежи // Вектор науки, серия Педагогика и психология, Тольятти, 2011, № 4 (7), s.74-77
2. Effect of Internet use on national identity // Universe of Culture, Ankara, 2012, № 11, s.99-106
3. Проблемы психологической зависимости от интернета в современный период // Вектор науки, серия Педагогика и психология, Тольятти, 2012,№ 1(8), s. 100-103 )
4. İnternet asılılığın tələbələrin təhsil və davranışına təsirinin bəzi psixoloji məsələləri // Müəllim hazırlığının müasir problemləri: təhsildə elmi və texnoloji innovasiyalar. II Beynəlxalq Elmi konfransın materialları.Bakı: 2012, s. 86-89
5. Tre Relationship between Emotional intelligence and Creativity of Female High Scholl students Tehran Sity // Life Science Journal, 2013, № 10(3) s. 283-291
6. Kompüter asılılığının psixososial problemləri // Psixologiya jurnalı, Bakı, 2012, № 1, s. 100-107
7. İnternetdən istifadə edən gənclərin sosial bacarıqlarının inkişafına emosional intellektin təsiri // Psixologiya jurnalı, Bakı, 2012, № 4, s. 93-99
8. İnternet asılılığın məktəblilərin təhsil və davranışına təsirinin bəzi psixoloji məslələri // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Xəbərləri, Bakı, 2013, № 3,438-441
9. Психологические проблемы, связанные с интернетом / Международная конференция. Пенза: 2012, с. 103-107
10. Проблемы интернета и молодежь // Международная конференция. Пенза: 2011, s. 109-113
11. Internet addiction and its impact on student’s behavior in Baku and Tehran // Exsen, Scientific Axis, Ankara, 2013, № 10, s. 80-93
12. Internetdən istifadə edən məktəblilərin iztirabları // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, Bakı, 2014, № 1, s. 121-123

**Гудси Фаранак Бахаддин**

# СРАВНИТЕЛЬНЫЙ СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ ПОВЕДЕНИЯ ШКОЛЬНИКОВ, ИСПОЛЬЗУЮЩИХ ИНТЕРНЕТ (Тегеран-Баку)

Во введении определяется уровень актуальности, степень разработанности проблемы, а также цели и задачи, методы и методология исследовательской работы.

В первой главе диссертации «Научно-теоретические вопросы исследования в социальной психологии вопросов поведения лиц, пользующихся интернетом» рассматриваются теоретические и методологические вопросы поведенческих проблем пользователей интернета с точки зрения социальной психологии. Отдельно анализируются проблемы формирования сети интернет, роли его в современной жизни, социально-психологические факторы развития учащихся, использующих интернет. Все это исследуется на основе анализа различных научных источников. Рассматривается также интернет-зависимость, причины и корни, способы коррекци и профилактики этой зависимости, факторы, влияющие на нее, дается также дополнительный анализ информации о методологических основах этого явиения.

Вторая глава «Социально-психологические проблемы школьников, пользующихся интернетом» посвящена рассмотрению связи между интернет-зависимостю и здоровьем школьников, которые пользуются интернетом, Здесь также отдельно расссматриваются их социальным-психологические характеристики.

Третья глава под названием «Экспериментальное исследование поведения школьников, пользующихся интернетом» посвящена итогам экспериментального исследования поведения школьников из Баку и Тегерана, пользующихся интернетом, на основе методик И.Гольдберга и К.Юнуга. Прежде всего, был установлен уровень приверженности школьников к Интернету. Результаты, полученные при исследовании поведения школьников Тегерана и Баку, относятся к их физическому и психическому здоровью, уровню стресса, проявлению такого психического расстройства, как депрессия. В конце главы определяются профилактические меры для школьных коллективов и родителей, социальной политики в целом.

В заключении делаются соответствующие выводы и даются рекомендации.

**Qudsi Faranak Bahaddin**

# COMPARATIVE SOCIO -PSYCHOLOGICAL ANALYSIS OF CONDUCT STUDENTS USING INTERNET (TEHRAN - BAKU)

In the introduction, the relevance is determined by the degree of a problem, as well as goals and objectives, methods, and research methodology.

In the first chapter of the thesis "Research and theoretical issues of research in social psychology questions the conduct of persons using the Internet" addresses the theoretical and methodological issues of behavioral problems of Internet users from the point of view of social psychology. Separately analyzed the problems of the formation of the Internet, its role in modern life, socio-psychological factors in the development of students using the Internet. All investigated based on the analysis of various scientific sources. We also consider Internet addiction causes and roots, methods of treatment and prevention of this dependence, the factors influencing it, is given as an additional analysis of information on the methodological basis of this psychological illness.

The second chapter of "Socio -psychological problems of students using the Internet" is devoted to the relationship between Internet addiction and the health of school children who use the Internet, using the Internet, there is also a separate rasssmatrivayutsya their social and psychological characteristics.

The third chapter is entitled "Experimental study of the behavior of students using the Internet" is devoted to the results of an experimental study of the behavior of students from Baku and Tehran, using the Internet, based on the methodologies I.Goldberg and K.Joung. First of all, became a reporter set the level of commitment of pupils to the Internet, based on vidvinutyh hypotheses. The results obtained in the study of the behavior of students in Tehran and Baku belong to their physical and mental health, stress level, the manifestation of a mental disorder such as depression. The chapter defined preventive measures for school groups and parents, social policy in general.

Finally, draw conclusions and recommendations.